**“İcra məmurları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq, “İcra məmurları haqqında” Azərbaycan Respublikasının Qanununu “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1010-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“İcra məmurları haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 1, maddə 18; 2001, 11, maddə 687, 12, maddə 731; 2003, 1, maddə 23; 2004, 2, maddə 57, 3, maddə 133; 2006, 11, maddə 928; 2007, 1, maddə 4, 7, maddə 712; 2010, 7, maddə 591; 2011, 6, maddə 477, 7, maddə 584, 12, maddə 1092; 2013, 7, maddə 788) 7-ci maddəsinin ikinci hissəsinin ikinci abzasından “andlı iclasçıların,” sözləri çıxarılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 13 fevral 2015-ci il
1190-IVQD